**AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN LOKAL ETİK KOMİTƏSİNİN**

**2021/22-Cİ İLLƏR ÜZRƏ**

**HESABATI**

Etik Komitə bioloji aktiv maddələrin, dərman vasitələrinin, texnologiyaların, tibbi məhsulların elmi, klinik və klinik tədqiqatları sahəsində ixtisaslaşmış mütəxəssislərin, alimlərin və həkimlərin birgə fəaliyyəti əsasında yaradılmış, könüllü üzvlüyə əsaslanan muxtar, müstəqil ictimai birliyidir.

Komitə bütün biotibbi layihələrin etik-hüquqi ekspertizasının aparılması məqsədilə insanların sınaqdan keçirilməsi, heyvanlar üzərində tədqiqatlar aparılması, eləcə də elmi-tədqiqat fəaliyyəti və klinik təcrübə sahəsində yaranan, mənəvi-etik problemlərin qarşısının alınması və həlli məqsədilə yaradılmışdır.

Komitə ərizəçilərin sənədlərini və materiallarını etik ekspertizaya qəbul edir, onların ekspertizasını aparır və müəyyən edilmiş qaydada qərar çıxarır.

Azərbaycan Tibb Universitetin Lokal Etik Komitəsi öz fəaliyyətini Azərbaycan Republikasının müvafiq qanunvericiliyinə, Klinik sınaqların keçirilməsi üzrə beynəlxalq standartlara və Helsinki Ümumdünya Tibbi Deklarasiyasına uyğun olaraq həyata keçirir.

Hesabat ili ərzində etik komitə öz işini aktiv şəkildə davam etdirmişdir. Hesabat dövründə keçirilmiş 6 iclas çərçivəsində 3-ü tibb üzrə elmləri doktoru dərəcəsi, 10-u isə tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün 15 elmi işin etik ekspertizası aparılmışdır. İki iş Tibb Universitetinin əməkdaşlarının da iştirak etdiyi ÜST-nın irimiqyaslı layihələri çərçivəsində olmuşdur:

I.

1. **Tədqiqatın adı- "Azərbaycanda tibb və sağlamlıq elmlərinin tədris olunduğu təhsil müəssisələrində öyrənmə mühitinin yaxşılaşdırılması məqsədilə qiymətləndirmələr"**
2. **Əsas tədqiqatçı (adı, soyadı, vəzifəsi, elmi dərəcəsi, müəssisə, ünvan, telefon, e-mail)**
   **Nilufər Məmmədova** – Azərbaycan Tibb Universiteti, Yoluxucu xəstəliklər kafedrası Assistent
   **Digər həm-tədqiqatçılar**
   **Samirə Məmmədova-** Yeni klinika, Həkim-mütəxəssis qastroenteroloq,
   **Nilufer Demiral Yılmaz**, Doçent Dr., Ege Üniversitesi Tıp Fakültesi Dekanlık Binası Tıp Eğitimi Anabilim Dalı, Bornova / İzmir,
   **Ozan Karaca,** Öğretim görevlisi Dr., Ege Üniversitesi Tıp Fakültesi Dekanlık Binası Tıp Eğitimi Anabilim Dalı, Bornova / İzmir,
   **Medine Derya Taş-** Azərbaycan Tibb Fakultəsi Tibb Bacılığı İxtisası,
   **Kamandar Yaqubov-** Azərbaycan Tibb Universiteti
   **Orxan İsayev,** Beynəlxalq əlaqələr üzrə prorektor, dosent, Azərbaycan Tibb Universiteti,
   **Hande Harmancı-** Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Azərbaycan,
   **Halil İbrahim Durak -** Ümumdünya Səhiyyə Təşkilatının Ölkə Ofisi, Azərbaycan,
3. **Təşəbbüskar müəssisə/təşkilat-**

**Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyi və Azərbaycan Tibb Universiteti**

4. **Tədqiqatın aparılacağı vaxt -**2022 Aprel -2022 May

1. **II Tədqiqatın adı: "Şamaxı, Azərbaycan üçün yeni İlkin Səhiyyə modelinin hazırlanması, tətbiqi və qiymətləndirilməsi"**
2. **Elmi rəhbər:** Hande Harmancı, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri,
3. **Elmi məsləhətçi:** Halil İbrahim Durak, Ümumdünya Səhiyyə Təşkilatı,
4. **Əsas tədqiqatçı:** 1. Mehmet Akman, Ümumdünya Səhiyyə Təşkilatı,
5. 2. Kevser Vatansever, Ümumdünya Səhiyyə Təşkilatı,
6. **Digər həm-tədqiqatçılar:** Samir Cavadov, Nilufer Memmedov (ATU) Ayla Ələsgərova, Azad Qəribov, Tural Gulu (ÜST), Aygün Mustafayeva, Ülviyə Həsənova, Teymur Mirzəbəyli, Elçin Əmirov, Rəşad Çobanlı,Emin Hüseyn (TƏBIB), Anar İsrafilov (Səhiyyə Nazirliyi), Peter Groenewegen(NIVEL, Hollanda), Judith de Jong (Maastricht Universitesi, Hollanda), Felicity Goodyear-Smith (Auckland Universitesi, Yeni Zelanda)
7. **Təşəbbüskar müəssisə/təşkilat: ÜST Azərbaycan ölkə ofisi**
8. **Tədqiqatın aparılacağı yer:**
   1. Şamaxı rayonu ilkin səhiyyə müəssisələri, mobil klinikalar, rayon mərkəzi və kəndləri
   2. Şamaxı rayonu Ümumdünya Səhiyyə Təşkilatının təlim mərkəzi
9. **Sponsorluq edən təşkilatın adı və ünvanı:** Ümumdünya Səhiyyə Təşkilatı
10. **Tədqiqatın aparılacağı vaxt:** 2020-2025